# SOCAR-ın fəaliyyətində şəffaflıq və hesabatlılıq

Samir Aliyev

# SOCAR-ın ölkə iqtisadiyyatında rolu




büdcə daxilolmalarının 6%-8%

vergi gəlirlərinin 15-17%

Şirkətin illik dövriyyəsi dövlət büdcəsi gəlirlərindən

4 dəfə çoxdur.

# Şirkətin missiyası və məramı

SOCAR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti**

**SOCAR-ın missiyası** Azərbaycan Respublikasının yanacaq-enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək Azərbaycanın elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etməkdir.

**Şirkətin məramı** əməliyyat effektivliyi, sosial və ekoloji məsuliyyəti qabaqcıl təcrübəyə uyğun, dünyanın şaquli inteqrasiya olunmuş iri beynəlxalq neft-qaz şirkətinə çevrilməkdir.

# İllik neft hasilatı (2009-2019), min ton




**Mənbə: SOCAR**

# İllik qaz hasilatı (2009-2019), milyon kubmetr




**Mənbə: SOCAR**

# Maliyyə göstəriciləri (2010-2019), milyon AZN




**Mənbə: SOCAR**

# Neft və neft-kimya məhsullarının ixrac dinamikası




**Mənbə: SOCAR**

# Gəlirlərin kateqoriyalar üzrə təhlili (məhsul növü üzrə)




**Mənbə: SOCAR-ın illik hesabatları**

# Gəlirlərin kateqoriyalar üzrə təhlili (coğrafi)



# Kapital və əməliyyat xərclərinin dinamikası, 2010-2019




**Mənbə: SOCAR**

# İstehsal olunan xam neft və təbii qazın maya dəyərinin dinamikası, 2008-2019




**Mənbə: SOCAR-ın illik hesabatları**

# SOCAR-ın hüquqi statusu

- SOCAR dövlət şirkətidir və 100% iştirak payı Azərbaycan Respublikasına məxsusdur.
- Şirkətin təşkilati hüquqi forması xüsusi formadır və dövlət müəssisəsi kimi qeydiyyatdan keçib.
- SOCAR-ın konkret sahibi qeyri-müəyyəndir
- SOCAR-ın kommersiya qurumu olaraq təşkilati-hüquqi forması qüvvədə olan Mülki Məcəllənin tələbləri ilə ziddiyyət təşkil edir.

# SOCAR-ın strukturu




"Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında" 24 yanvar 2003-cü il tarixli, 844 saylı Fərman

# Şirkətin idarəçiliyi

- SOCAR-ın Nizamnaməsi, Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi, strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

- Şirkətin strukturuna daxil olan qurumlarının və səlahiyyətli idarəetmə orqanlarının (Şirkətin Şurası və komitələrinin) müvafiq olaraq nizamnamələrini və əsasnamələri isə Şirkətin prezidenti tərəfindən təsdiq edir.

# Mülki Məcəlləyə görə...

- Təsərrüfat cəmiyyətlərində ali idarəetmə orqan onların iştirakçılarının (səhmdarlarının) *ümumi yığıncağı* hesab olunur.
- *Ümumi yığıncaq* Cəmiyyətin 3 ildən artıq olmayan müddətə *direktorlar şurasını (və ya müşahidə şurasını)* və (və ya) *təftiş komissiyasını (müfəttiş)* yaradır.
- İcra orqanı *müşahidə şurası* və ya Nizamnamədə bu səlahiyyət müşahidə şurasına verilməyibsə, *ümumi yığıncaq* tərəfindən müəyyənləşdirilir.




G20/OECD Principles of Corporate Governance, 2015 edition




OECD Guidelines on Corporate Governance of State-Owned Enterprises, 2015 Edition

# DŞ-lərin maliyyə hesabatlığı

SOCAR

1. Ernst and Young Holding (2009-2019)

КазМунайГаз

1. Ernst and Young Holding (2005-2019)

GAZPROM

1. PWC (1998-2014)
2. FBK LLC (2015-2019)

NAFTOGAZ GROUP

1. BDO LLC (2001-2003, 2010-2011)
2. Ernst and Young Holding (2004-2009)
3. Deloitte & Touché USC (2012-2019).

State Oil Fund of the Republic of Azerbaijan

1. Ernst and Young Holding (2002-2006, 2010-2012)
2. *Deloitte and Touché* (2007 - 2009)
3. *PWC* (2013-2019).

# Təbii Resursların İdarəedilməsi İndeksi

**Təbii Resursların İdarəedilməsi İndeksi**

**Dəyərin həyata keçirilməsi** *(value realisation)*

- hasilat sənayesində lisenziya və icazələrin verilməsi
- vergi sistemi
- yerli səviyyədə sosial təsirlər
- mədən sənayesində işləyən dövlət şirkətlərinin idarəedilməsi

**Gəlirlərin idarəedilməsi** *(revenue management)*

- Dövlətin kapitalda payı
- Dövlət və DŞ arasındakı transfer (köçürmə) qaydalarının mövcudluğu
- Dövlət və DŞ arasındakı transferlərin (köçürmələrin) açıqlanması
- DŞ-lər üçün maliyyə hesabatlılığı qaydalarının mövcudluğu
- DŞ-lərin qeyri-kommersiya fəaliyyətləri təcrübəsi
- və s..

**Əlverişli mühit** *(enabling environment)*

# Şəffaflıq və hesabatlılıq




- 100 mümkün baldan 70
- 74 DŞ arasında 13-cü
- 52 neft və qaz şirkətləri arasında 10-cu

| Qruplar | Ballar |
| --- | --- |
| **Yaxşı** | 75 bal və daha yüksək |
| **Qənaətbəxş** | 60-74 bal |
| **Zəif** | 45-59 bal |
| **Pis** | 30-44 bal |
| **Çox pis** | 30 baldan aşağı |

Dövlət və DŞ arasındakı transfer (köçürmə) qaydalarının mövcudluğu

AZƏRBAYCAN

100 bal

# Şirkətin fəaliyyəti

STRATEGİYAsız
İNKİŞAF




- Neft və qaz hasilatı, elektroenergetika, neft biznesinin inkişafı, innovativ inkişaf sahələri və s. üzrə Strategiyalar **(Gasprom)**
- İnkişaf Strategiyası - 2025 **(KazMunayGas)**

# SOCAR-ın dövlət qurumları ilə münasibəti




**Mənbə: Moore Stephens Azərbaycan**

# SOCAR-la dövlət arasında maliyyə axınları

**<u>Dövlətdən SOCAR-a maliyyə axını</u>**

- Kapitalın artımına dəstək
- İnvestisiya
- Kreditləşmə
- Vergi güzəşti
- Büdcə yardımları

# Dövlətdən SOCAR-a maliyyə axını

**Kapitalın artımına dəstək**




2011-2019-ci illər üzrə SOCAR-ın nizamnamə kapitalının dəyişməsi, milyard manat

**Mənbə: SOCAR-ın Davamlı inkişaf haqqında Hesabatları**

# Dövlətdən SOCAR-a maliyyə axını

**İnvestisiya**

- 2014-cü ilin dövlət investisiya xərclərindən "Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı çərçivəsində nəzərdə tutulmuş qazlaşdırma tədbirləri üçün SOCAR-a 60 milyon manat vəsait ayrılıb.
- 2018-ci ildə qazlaşdırmanın 95%-ə çatdırılması ilə bağlı SOCAR-a 100 milyon manat vəsait ayrılıb.
- Nazirlər Kabinetinin Sərəncamına uyğun olaraq Gədəbəy rayonunun sərhədyanı ərazisində yerləşən 19 kənddə qazlaşdırma işləri yekunlaşdırmaq üçün Ehtiyat Fondundan 8,62 milyon manat vəsait ayrılıb. Prosesin davamı üçün 2019-cu ilin büdcəsində 53,5 milyon manat vəsait nəzərdə tutulub.
- "Star" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələş-dirilməsi üçün DNF-dən 2013-2017-ci illərdə ümumilikdə 1,7 milyard manat vəsait ayrılıb.
- 2019-cu ildə dövlət əsaslı vəsait qoyuluşu xərclərindən SOCAR tabeliyində olan H.Əliyev adına Neft Emalı Zavodunun yenidən qurulması və Ümid, Qarabağ və Babək yataqlarının işlənilməsi və s. istiqamətlərdə infrastruktur və sosial layihələrin maliyyə təminatı üşün müvafiq məbləğdə vəsait ayrılması planlaşdırılıb.

# Dövlətdən SOCAR-a maliyyə axını

**Kreditləşmə**

- Dövlət İnvestisiya Proqramının icrası çərçivəsində dövlət zəmanəti əsasında 2015-ci ildə Mərkəzi Bankı tərəfindən bir sıra layihələrin maliyyələşməsinə, o cümlədən SOCAR-a 1891,5 milyon manat məbləğində kredit xətti açılıb.
- Bir sıra hallarda Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabının (sərbəst) qalığının bir hissəsi ölkədaxili banklarda depozit hesablarına yerləşdirilir. Həmin banklardan da alınan məlumatlara görə yerləşdirilmiş depozit məbləği kredit şəklində güzəştli faiz dərəcəsi ilə məqsədli şəkildə dövlət şirkətlərinə və nəzarət zərfi dövlətə məxsus səhmdar cəmiyyətlərə, o cümlədən Dövlət Neft Şirkətinə verilir.
- 2018-ci ilin dövlət büdcəsini icrasında qalmış vahid xəzinə hesabının qalığının 9,4 milyon manatı Maliyyə Nazirliyi vasitəsilə 2019-cu ildə büdcə ssudası kimi il ərzində qaytarmaq şərti ilə SOCAR-ın Neft Emalı zavoduna verilib.
- 2018-ci ilin martında SOCAR Maliyyə Nazirliyindən 102 milyon AZN (60 milyon ABŞ dolları) dəyərində qısamüddətli, 98 milyon AZN məbləğlərində uzunmüddətli borc götürüb.

# Dövlətdən SOCAR-a maliyyə axını

## Vergi güzəşti

- Nazirlər Kabineti 6 fevral 2014-cü il, 35 saylı "**Neft məhsullarının qüvvədə olan aksiz dərəcələrinin səviyyəsinin dəyişdirilməsi barədə**" Qərarı ilə Azərbaycan Respublikasında istehsal olunan və satılan 23 növ neft məhsullarının 11-də tətbiq edilən aksiz vergisinin dərəcələri əhəmiyyətli dərəcədə azalıb. Hökumətin qərarı ilə SOCAR-ın emal etdiyi müxtəlif növ yanacağın satışından hər ton üçün əlavə olaraq 30-60 faiz intervalında qazanc əldə etməyə başladı.
- Hökumət dövrü olaraq daxili bazarda yanacağın qiymətini tənzimləmək üçün gömrük rüsumların dəyişiklik edərək idxal olunan yanacağı müəyyən müddətə idxal rüsumlarından azad edir. Bu güzəştlər nəticəsində ölkəyə yanacaq idxal edən SOCAR şirkəti müəyyən dövr üçün vergi güzəştləri əldə edir.
- SOCAR-ın əldə etdiyi digər vergi güzəşti ƏDV ilə bağlıdır. AÇG, Şah Dəniz və Abşeron HPBS-lərin müddəalarına uyğun olaraq Azərbaycan (AÇG) Limited (AzAÇG), Azərbaycan (Şah Dəniz) Limited (AzŞD) və SOCAR Abşeron MMC vergi orqanlarının verdiyi və müvafiq olaraq 19 sentyabr 2019-cu il, 3 iyun 2026-cı il və 22 may 2034-cü il tarixlərinədək qüvvədə olan ƏDV şəhadətnamələrinə uyğun olaraq müvafiq HPBS əsasında Azərbaycan Respublikasında podratçı tərəfə sıfır faiz ƏDV tətbiq edilir.

# Dövlətdən SOCAR-a maliyyə axını

**Büdcə yardımları**

- Milli Məclisin 30 iyun 2017-ci il tarixli qərarına uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən istehsal olunan təbii qazın daxili bazarda maya dəyərindən aşağı qiymətə satışına görə yaranmış zərərin örtülməsi üçün ("Sosial təminat" köməkçi bölməsi üzrə nəzərdə tutulmuş vəsaitdən) dövlət büdcəsindən 2017-ci ildə 250 milyon manat məbləğində vəsait ayrılıb.
- 2015-ci ildə baş vermiş devalvasiya "Azərenerji" ASC-nin xarici kreditlər üzrə borc öhdəliyini əhəmiyyətli dərəcədə artırması nəticəsində dövlət şirkətinin bir sıra öhdəliklərinin icrasında, o cümlədən yanacağa görə Dövlət Neft Şirkətinə ödənişlərin aparılmasında çətinliklər yaranıb. "Azərenerji" ASC və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında qarşılıqlı ödəmələr probleminin tənzimlənməsi məqsədi ilə Nazirlər Kabinetinin müvafiq sərəncamına uyğun olaraq 2015-ci ilin 1 oktyabr tarixinə "Azərenerji" ASC-nin SOCAR-a yanacağa görə yaranmış borclarının ödənilməsi məqsədi ilə "Azərenerji" ASC-yə uzunmüddətli, aşağı faizli borcun verilməsi təmin edilib.

# Büdcə ödənişləri




**Mənbə: Azərbaycan Respublikası Hesablama Palatası**

# 2013-2018-cü il üzrə xeyriyyə, sosial və sposnsor yardımları

*min manat*

| Yardımın əhatə dairəsi | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|
| **İdman** | 7008,6 | 4527,3 | 7694,8 | 335,0 | 10473 | 527,7 |
| **Maliyyə assosiasiyaları və həmkarlar ittifaqları** | 120,0 | 174,0 | 528,8 | 1019,5 | 2508,2 | 890,9 |
| **Təhsil** | 7311,7 | 244,2 | 622,8 | 282,3 | 4292,7 | 196,7 |
| **Mədəniyyət və incəsənət** | 1143,9 | 1992,3 | 736,7 | 1820,1 | 2104,8 | 2826,5 |
| **Dövlət müəssisələri və orqanları** | 1620,0 | 2868,4 | 1050,0 | - | - | |
| **Səhiyyə** | 2400,0 | 15,5 | - | - | 12,3 | |
| **Fərdlərə göstərilən maddi yardımlar** | 655,4 | 1114,4 | 1468,0 | 463,7 | 568,9 | 172,9 |
| **Əmək qabiliyyətini itirmiş veteranlar və şəxslər** | 152,6 | 67,3 | 65,1 | - | - | |
| **Cəmi:** | 20412,3 | 11003,4 | 12166,1 | 3920,7 | 19959,9 | 4614,7 |

**Mənbə: SOCAR-ın 2013-2018-ci illər üzrə Davamlı Inkisaf üzrə Illik Hesabatları**

# 10 ildə müşahidə edilən tendensiya

- SOCAR sürətlə böyüyür, neft sektoru ilə yanaşı qeyri-neft sektoru seqmentinə də daxil olur və ölkə iqtisadiyyatı üçün böyük riskə çevrilir
- Dövlətin xarici borclarının üstələyən borc öhdəlikləri artmaqda davam edir və onların qaytarılması ölkənin valyuta bazarının sabitliyinə təhlükə yaradır
- Dünyanın enerji seqmentinin sürətlə dəyişməsi, bərpaolunan enerjinin payının artması fonunda Şirkətin gələcəyə baxışlarını və hədəflərini müəyyənləşdirən və onun inkişafını nəzərdə tutan orta və uzunmüddətli vahid Strategiya sənədi mövcud deyil
- Hesabatlarında korporativ idarəetmə sistemlərini tətbiq etdiyini daim vurğulayan Şirkət korporativ idarəetmə standartlarına uyğun gəlməyən idarəetməyə malikdir
- Şirkətin fəaliyyətinə qanunverici orqan tərəfindən nəzarət mexanizmi yoxdur
- Şirkətlə dövlət arasındakı maliyyə axınlarını tənzimləyən aydın, dəqiq normativlər mövcud deyil

# Tapıntılarımız…

- SOCAR-ın dövlətlə maliyyə münasibətlərini tənzimləyəcək dəqiq və aydın qaydalar sistemi mövcud deyil.
- SOCAR-ın kommersiya qurumu olaraq təşkilati-hüquqi forması aydın deyil və qüvvədə olan Mülki Məcəllənin tələbləri ilə ziddiyyət təşkil edir.
- SOCAR-ın idarəçiliyi korporativ idarəetmə standartlarına uyğun gəlmir
- Nizamnamədə rəhbər vəzifədə çalışan şəxslərin bilik və bacarıqlarına, o cümlədən yaş həddinə və iş təcrübəsinə dair hər hansı meyarlar nəzərdə tutulmayıb.
- Müstəqil kənar audit şirkətlərinin xidmətindən istifadə müddəti limitləşdirilməyib.
- Şirkətin yaxın və ortamüddətli dövrdə qarşıya qoyduyu hədəflər və buna nail olmaq üçün fəaliyyət planını əks etdirən strategiyası mövcud deyil
- SOCAR qanunverici orqan qarşısında hesabatlı deyil və parlamentin SOCAR-ın fəaliyyətinə nəzarət etmək səlahiyyəti məhduddur.

# Tövsiyələr

**Şirkətin gələcək hədəflərinin müəyyənləşdirilməsi və fəaliyyət çərçivələrinin dəqiqləşdirilməsi**

- Şirkətin orta (5 illik) və uzun müddətli (15-20 illik) dövrə hədəflənmiş vahid İnkişaf Strategiyasının işlənib hazırlanması
- SOCAR-ın böyüyərək "Too big to fail" statuslu şirkətə çevrilməsinin qarşısını almaq və bazarda rəqabət mühiti yaratmaq üçün onun üfiqi və şaquli inhisarçı mövqeyinin aradan qaldırılması.
- ***Şirkətin üfuqi inteqrasiya olunmaq hədəflərinin məhdudlaşdırılması.*** Bunun üçün "Azərkimya" istehsalat birliyinin şirkətin tərkibindən ayrılaraq müstəqil şirkətə çevrilməsi məqsədəuyğun olardı.
- ***Şirkətin şaquli inteqrasiya olunmaq hədəflərinin məhdudlaşdırılması.*** İstehsal subyekti ilə satış subyekti arasında qarşılıqlı nəzarətin güclənməsi və şəffaflığın təmin edilməsi üçün ölkə daxilində əhaliyə və qeyri-əhali qrupuna təbii qaz satışını həyata keçirən "Azəriqaz" İB-nin SOCAR-ın tərkibindən çıxarılması və müstəqil quruma çevrilməsi

# Tövsiyələr

- **Şirkətin təşkilati hüquqi-formasının dəqiqləşdirilməsi və idarəçilikdə korporativ idarəetmə standartlarının tətbiqi**
  - Şirkətin təşkilati-hüquqi formasının mövcud "dövlət müəssisəsi" statusundan təsərrüfat cəmiyyəti forması olan və səhmləri dövlətə məxsus səhmdar cəmiyyəti statusuna keçidinin təmin edilməsi
  - ***Şirkətin korporativ idarəetmə standartlarını tətbiq eiməsi.*** Bunun üçün Nizamnaməyə dəyişikliklər edilərək idarəetmə strukturu dəyişilməli, hazırda fəaliyyətdə olan Şirkət Şurası ləğv edlməlidir. Əvəzində ölkə prezidenti tərəfindən təyin edilən strateji idarəçiliyə cavabdeh Müşahidə Şurası (və ya Direktorlar Şurası) yaradılmalıdır. Müşahidə Şurasının (və ya Direktorlar Şurası)  isə icraçı qurumun – İdarə Heyətinin və Nəzarət-Təftiş (Audit) Komitəsinin rəhbər və işçilərini təyin edir.
  - Nizamnaməyə Şirkəti idarə edən strukturların (Müşahidə Şurası, İdarə Heyəti, Nəzarət-Təftiş (Audit) Komitəsi) rəhbə və üzvlərinin peşəkarlığına dair tələblər daxil edilsin

# Tövsiyələr

**SOCAR ilə dövlət arasında maliyyə axınlarını tənzimləyən müvafiq normativlər və qaydaların qəbulu**

- “Büdcə sistemi haqqında” Qanunda dövlət büdcəsi ilə dövlət şirkətləri arasında büdcə transferlərini tənzimləyən müddəaların daxil edilməsi
- Vergi Məcələsində mədən sənayesində işləyən şirkətlər, o cümlədən dövlət şirkətləri üçün ayrıca vergi rejiminin, vergi nəzarəi sisteminin daxil edilməsi

**Dövlət büdcəsi ilə şirkər arasındakı pul köçürmələri ilə bağlı məlumatların ictimaiyyətə dövri olaraq açıqlanması üçün şəffaflıq və hesabatlılıq öhdəliklərinin dəqiq və aydın çərçivələrini müəyyənləşdirən dəyişikliklər edilməsi**

- 2020-2022-ci illəri əhatə edən “Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı”nında hasilat sənayesində fəaliyyət göstərən şirkətlərin, o cümlədən SOCAR-ın şəffaflığı və hesabatlılığı qeyd edilməlidir
- “İnformasiya əldə etmək haqqında” Qanuna dəyişiklik edilərək SOCAR-ın informasiya sahibləri kateqoriyasına daxil edilməsi (Maddə 9) və şirkətin fəaliyyəti ilə bağlı maliyyə və əməliyyat məlumatları açıqlanması zəruri olan informasiyalar siyahısına daxil edilməlidir (Maddə 29)

# Tövsiyələr

- **Hesablama Palatası tərəfindən dövlət şirkətlərində, o cümlədən SOCAR-da aparılmış audit yoxlamasının hesabatının internet saytında yerləşdirilməsi və ictimaiyyətə açıqlanması**
- **Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən dövlət əsaslı vəsait qoyuluşunun bölgüsü ilə bağlı hər il təsdiq edilən Qərarının ictimaiyyətə açıqlanması üçün e-qanun.az saytında yerləşdirilməsi**
- **SOCAR-ın fəaliyyətinə dövlət nəzarətinin gücləndirilməsi üçün Şirkətin təşkilati-hüquqi formasının mövcud "dövlət müəssisəsi" statusundan təsərrüfat cəmiyyəti forması olan və səhmləri dövlətə məxsus səhmdar cəmiyyəti statusuna keçidinin təmin edilməsi.** Şirkətin əsas səhmdarı qismində İqtisadiyyat Nazirliyi və ya Energetika Nazirliyi çıxış edə bilər**.**
- ***Şirkətin korporativ idarəetmə standartlarını tətbiq eiməsi.*** Bunun üçün Nizamnaməyə dəyişikliklər edilərək idarəetmə strukturu dəyişilməli, hazırda fəaliyyətdə olan Şirkət Şurası ləğv edlməlidir. Əvəzində ölkə prezidenti tərəfindən təyin edilən strateji idarəçiliyə cavabdeh Müşahidə Şurası (və ya Direktorlar Şurası) yaradılmalıdır. Müşahidə Şurasının (və ya Direktorlar Şurası) isə icraçı qurumun – İdarə Heyətinin və Nəzarət-Təftiş (Audit) Komitəsinin rəhbər və işçilərini təyin edir.

# Tövsiyələr

- SOCAR-ın bilavasitə onun funksiyalarına aid olmayan istiqamətlər üzrə dövlət proqramlarında iştirakı hallarını, belə layihələrin icrasında Şirkətin iştirakı qaydalarını işləyib təsdiq edilməsi;
- Şirkətin illik hesabatlarında onun bütün sosial fəaliyyətləri üzrə, habelə idman sahəsində bütün fəaliyyətləri üzrə illik xərclərini əks etdirilməsi


THANK YOU
FOR LISTENING TO MY
PRESENTATION